## Azərbaycan Kültür Ocağı tərəfindən 23 fevral tarixində keçirilmiş tədbir haqda qısa məlumat

Berlində fəaliyyət göstərən Azərbaycan Kültür Ocağı fevral ayının 23-də Berlinin Şöneberg bələdiyyə binasında Uluslararası Ana Dili Günü münasibətiylə tədbir keçirildi.

Azərbaycan Kültür Ocağının sədri Hafiz Məhin tədbir iştirakıçılarını salamladıqdan sonra 21 fevral Uluslararası Ana Dili Günü haqqında qısa məlumat verdi. Daha sonra bu günlərdə Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırımın 15-ci ildönümün təsadüf etdiyinə işarə olundu və tədbir iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla anıldı.

Tədbirə məruzəçi kimi də'vət olunmuş doktor Siddiqə Ədaləti və Əlirza Ərdəbili üzürlü olaraq iştirak edə bilmədiklərindən ilk olaraq Güney Azərbaycanın tanınmış aydınlarından cənab Süleymanoğluya söz verildi. Cənab Süleymanoğlu Ana dilinə fəlsəfi aspekdən yanaşaraq özəlliklə batı mütəfəkirlərinin baxışlarını özətlərlə tədbir iştirakçılarının diqqətinə catdırdı.
İkinçı məruzəçi ədəbiyyatşünas, filalogiya elimləri doktoru Aybəniz Kəngərli çıxışında son yüz ildə Azərbaycan xalqının öz mədəni hüquqları uğrunda apardığı mübasrizədən söz açdı. Azərbaycanlıların Şərqdə qabaqcıl bir millət kimi mədəniyyət sahəsində mübarizə apararaq böyük nailiyyətlər əldə etdiklərini qeyd etdi. O, ümumtürk ədəbi dili, iki Azərbaycan arasında ədəbi əlaqələr, Güneydə assimilyasiya siyasəti nəticəsində dilimizin indiki durumu haqda mə'lumatları tədbir iştirakçilarının diqqətinə çatdırdı.
Fasilədən sonra Güney Azərbaycanın digər tanınmış araşdırmacısı cənab Güntay Cavanşir söz aldı. Ana dili və milli kimlik haqda danışaraq, dilin özəlliyi, milli ruhun, insan şəxsiyyətinin formalaşmasında dilin rolu haqda geniş söhbət açdı. Güneydə hakim şovinist siyasəti nəticəsində ana dilimizin günü-gündən zərbələrə məruz qaldığını, belə gedersə yaxın 20 il ərzində dilimizin bütünlüklə aradan getməsi təhlükəsiylə üzləşəcəyinə işarə edərək, hamını uyararaq bu sahədə özəlliklə Azərbaycan fəallarını aktiv surətdə ana dilimizin qorunması üçün ciddi addımlar atmağa cağırdı .
Tədbirin sonunda toplantı iştirakçılarının məruzəçilərə ünvanlandığı müxtləif suallar cavablandırıldı.



